

# İstedadlı rəqqasə, görkəmli xoreoqraf

Xalq artisti Afaq Məlikovanın haqqında qeydlərimizi edərkən iki məqam diqqətimizdən yayınmadı. Düşünürük ki, görkəmli rəqqasənin uğurlarında hər iki faktor öz rolunu oynamışdır.

Birinci məqam Afaq xanımın dünyaya göz açdığı ailə ilə bağlıdır. Tanınmış aktyor, respublikanın əməkdar artisti Süleyman Tağızadənin ailəsində boya-başa çatan xoreoqraf seçdiyi sənətin ilk xeyir-duasını atasından almışdır. Hərçənd onun ömrü qızının xoreoqrafiya məktəbini bitirənədək vəfa etməmişdi.

İkinci məqam Afaq Məlikovanın Bakı Xoreoqrafiya Məktəbində görkəmli Azərbaycan balerinası Leyla Vəkilovadan dərs almasıdır. Bu sinfi o, atasının ölümündən 3 il sonra bitirəcəkdi.

1963-cü ildən Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti, sonralar həm də məşqçi pedaqoqu, 1984-cü ildən ansamblın rəhbəri olmuşdur.

Əsasən Azərbaycan xalq rəqslərinin ifaçısı kimi tanınan Afaq Məlikovanın repertuarına dünya xalqlarının rəqsləri də daxildir.

Azərbaycan bəstəkarlarının əsərlərində, məsələn, Əfrasiyab Bədəlbəylinin «Qız qalası» baletində gürcü rəqsi, «Nəlbəki», «Şalaxo» rəqslərinə quruluş vermişdir.

Tükənməz enerjili peşəkar sənətkar rəhbərlik etdiyi ansamblla dünyanın bir çox ölkələrində (Türkiyə, Misir Ərəb Respublikası, Polşa, Fransa, İngiltərə, Kanada, Portuqaliya, Almaniya, İspaniya və s.) Azərbaycan incəsənətini uğurla təbliğ etmişdir.

**X.ASLANOVA**